**İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİ**

BİRİNCİ BÖLMƏ

# MARİNA ALEKSEYEVA RUSİYAYA QARŞI

*(Ərizə № 22490/05)*

QƏRAR

STRASBURQ

19 dekabr 2013-cü il

**QƏTİ QÜVVƏYƏ MİNMİŞDİR**

19 mart 2014-cü il

*Bu qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndində təsbit edilmiş qaydada qəti qüvvəyə minmişdir. Qərara redaktə xarakterli düzəlişlər edilə bilər.*

**Marina Alekseyeva Rusiyaya qarşı işi üzrə,**

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Birinci Bölmə) aşağıdakı tərkibdə:

İzabel Berro-Lefevr, Sədr,
*Hakimlər*
Elizabet Şteyner,
Xanlar Hacıyev,
Miryana Lazarova Traykovska,
Julia Laffranq,
Kseniya Turkoviç,
Dmitriy Dedov,
və *Bölmə katibinin müavini* – Andre Vampaş,

26 noyabr 2013-cü il tarixində şikayətə qapalı məhkəmə iclasında baxaraq,

M Ü Ə Y Y Ə N E T D İ:

PROSEDUR

1. İş Rusiya Federasiyasının vətəndaşı xanım Marina Yuryevna Alekseyevanın ("ərizəçi") İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanın ("Konvensiya") 34-cü maddəsinə uyğun olaraq Rusiya Federasiyasına qarşı 31 may 2005-ci il tarixində təqdim etdiyi şikayət (№ 22490/05) ilə başlanmışdır.
2. Ərizəçi Moskvada fəaliyyət göstərən hüquqşünas cənab A.Yakovenko tərəfindən təmsil olunmuşdur. Rusiya Hökumətini ("Hökumət") Rusiya Federasiyasının İnsan Hüquqları üzrə Avropa Məhkəməsindəki nümayəndəsi cənab G. Matyuşkin təmsil etmişdir.
3. Ərizəçi iddia etmişdir ki, onun oğlunun hərbi xidmət zamanı ölümü ilə bağlı araşdırma effektiv olmamışdır.
4. 26 mart 2010-cu il tarixində ərizə Hökumətə kommunikasiya olunmuşdur.

FAKTLAR

I. İŞİN HALLARI

5. Ərizəçi 1960-cı ildə anadan olmuşdur və Norilskdə yaşayır.

**A. Ərizəçinin oğlunun ölümü**

6. 1 avqust 2002-ci il tarixində ərizəçinin oğlu Qiorqi Alekseyev İrkutsk Hərbi Aviasiya Mühəndisliyi İnstitutuna ("İnstitut") qəbul olunmuşdur. Bu təhsil onun hərbi xidmətinin tərkib hissəsini təşkil edirdi və ərizəçinin oğlu sıravi əsgər kimi xidmət edirdi.
7. 1 mart 2004-cü il tarixində ərizəçinin oğlu tədris aerodromunun dayanacağındakı nəzarət-buraxılış məntəqəsində sutkalıq növbətçilikdə idi. Növbətçilikdə olduğu müddətdə ona süngü verilmişdi. Əsgər Alekseyev növbətçilik üçün gəldikdə aerodromda növbətçi olan kapitan L. onu səliqəsiz görünüşünə görə tənbeh etmişdir və çatışmazlıqları aradan qaldırmağı tələb etmişdir. Əsgər Alekseyevin bilavasitə rəhbəri olan kapitan İ. də bu zaman orada olmuşdur və xidmətə hazırlıqlı olmadığı üçün ona qarşı intizam tədbirlərinin görüləcəyi barədə xəbərdarlıq etmişdir.
8. 2 mart 2004-cü il tarixində saat 07.00-da sutkalıq növbətçilik ərzində əsgər Alekseyev naməlum şəxsin aerodromun dayanacağına icazəsiz daxil olmasına yol vermişdir. Daha sonra o, həmin şəxsin Toyota Kamri avtomobilində dayanacağı tərk etməsinə icazə vermişdir. Eyni zamanda, aerodromda xidmətdə olan zabit lampanın bir gün əvvəl mövcud olan şüşə plafonunun bərkidicisinin yerində olmadığını müəyyən etmişdir. O daha sonra əsgər Alekseyevdən dayanacağın nəzarət qaydalarının tələblərini pozması ilə bağlı yazılı izahat verməsini və bərkidicini tapmağı və ya onun dəyərini ödəməyi tələb etmişdir, çünki bərkidici olmadan lampadan istifadə etmək mümkün deyildi.
9. 2 mart 2004-cü il tarixində təxminən saat 11.00-da kapitanlar L. və Ş. aerodromun buraxılış-nəzarət məntəqəsinin istirahət otağından səs gəldiyini eşitmişdirlər. Otağa daxil olarkən onlar əsgər Alekseyevi döşəmədə huşsuz və sinəsində bıçaq yarası olan vəziyyətdə uzanmış halda aşkar etmişdirlər. Əsgər Alekseyev hərbi hospitala çatdırılmış və orada ölmüş elan olunmuşdur.
10. İstirahət otağında əsgər Alekseyev tərəfindən yazılmış məktub tapılmışdır. Məktubda deyilir:

> "Bu gün həddindən artıq çox problemlərim olduğu üçün həyatıma son qoydum. (1) Toyota Kamriyə görə 30 000 ABŞ dolları borcum var. (2) Növbətçi zabitdə olan lampa bərkidicisinə görə 900 rubl ödəməliyəm və (3) Kapitan İ. növbətçiliyim bitəndən sonra məni döyəcəyini vəd edib. Mən belə yaşaya bilmərəm. Ana, ata, bacı, xahiş edirəm məni bağışlayın.
>
> 2 mart 2004-cü il, 11.00
>
> Alekseyev"

## B. Cinayətin istintaqı

11. 2 mart 2004-cü il tarixində İrkutsk Qarnizonunun Hərbi Prokurorluğu ("Qarnizon Prokurorluğu") Rusiya Federasiyası Cinayət Məcəlləsinin 110-cu maddəsinə (özünü öldürmə həddinə çatdırma) əsasən cinayət işi başlamışdır. İşə 11/23/0012-04 nömrəsi verilmişdir.
12. Həmin gün istintaq orqanları, buraxılış-nəzarət məntəqəsi və istirahət otağı da daxil olmaqla, hadisə yerinə baxış keçirmiş; süngü, əsgər Alekseyevin meyitinin yanında tapılmış məktub, onun paltarları və şəxsi əşyaları da daxil olmaqla bəzi predmetləri götürmüş və meyitinin məhkəmə-tibbi ekspertizasını təyin etmişdirlər.
13. Daha sonra həmin gün istintaq orqanları kapitan L.-i dindirmişlər. Onun ifadəsinə əsasən, 1 mart 2004-cü il tarixində o, təlim aerodromunda 4 nəfər tələbə, əsgərlər Alekseyev, Kol., G. və Kob. ilə birlikdə xidmətdə idi. Növbətçiliyə gələn zaman o, əsgərlər Alekseyev və Kob.-u səliqəsiz görünüşlərinə görə tənbeh etmişdir, belə ki, onların yaxası çirkli idi və kapitan onlardan bu qüsuru aradan qaldırmağı tələb etmişdir. Onlar otağı tərk etmiş və qısa müddətdən sonra təmiz yaxalıqla geri dönmüşdürlər. Aerodromda zabitlərin şəxsi avtomobillərinin parklanması üçün dayanacaq mövcuddur. Dayanacağa aerodromun qapılarından yalnız saat 22.00-dək və aerodromun komandiri tərəfindən təsdiq edilmiş siyahıda olan avtomobillərə daxil olmağa icazə verilir. Dayanacağa daxil olmağa çalışan avtomobil siyahıda deyilsə, növbətçi bu barədə kapitan L.-ə məlumat verməlidir, o isə öz növbəsində, komandirdən avtomobili içəri buraxmaq üçün icazə almalıdır. 2 mart 2004-cü il tarixində saat 07.00-da əsgər Alekseyev kiminsə aerodroma daxil olmağa çalışdığını görüb qapılara doğru getmişdir. Qapıya çatandan sonra o, keçmək icazəsi olmayan kişi və qadını içəri buraxmışdır. Həmin vaxt kapitan L. nəzarət-buraxılış məntəqəsində səhər yeməyini yeyirdi. Təxminən saat 08.00-da İnstitutun direktorunun müavini podpolkovnik J. ona zəng vurmuş və kənar şəxslərin hansı səbəbdən aerodroma daxil olduğunu və avtomobili necə apara bildiklərini soruşmuşdur. O, həmçinin buraxılış-nəzarət qaydalarına niyə əməl olunmadığını soruşmuşdur. İyirmi və ya otuz dəqiqə sonra mayor P., kapitan Ş. və əsgər Alekseyev nəzarət-buraxılış məntəqəsinə gəlmişdirlər. Kapitan L. və mayor P. əsgər Alekseyevi kənar şəxsləri yoxlamadan içəri keçmələri və avtomobili aparmağa icazə verdiyi üçün onu tənbeh etmişlər. Hər bir halda onlar sakit danışırdılar, çünki kapitan L. məlumatlı idi ki, qeyd olunan avtomobil podpolkovnik J.-nin istəyi ilə park olunmuşdur və avtomobil oğurlanmamışdır. Kapitan L. əsgər Alekseyevdən günün sonuna qədər yazılı izahat təqdim etməyi tələb etmişdir.

Əsgər Alekseyev məyus görünmürdü. Kapitan L. daha sonra növbətçilərə gecə növbətçiliyi üçün verilən lampanın bərkidicisinin yerində olmadığını görmüşdür və əsgərlər Alekseyev və G.-dən onu axtarmağı tələb etmişdir. Təxminən saat 10.30-da əsgər Alekseyev nəzarət-buraxılış məntəqəsinə qayıtmışdır. Kapitan L. ondan bərkidicini tapıb-tapmadığını soruşmuşdur. O, "xeyr" deyə cavab vermişdir və standart prosedura əsasən növbətçilikdə olan zabitlərin imzalamaları üçün qeydiyyat jurnalını aerodroma aparmışdır. Saat 10.50-də o, nəzarət-buraxılış məntəqəsinə qayıtmışdır. Kapitan L. qeydiyyat jurnalının imzalanıb-imzalanmadığını soruşmuşdur və əsgər Alekseyevdən təsdiq cavabı almışdır. Kapitan L. əsgər Alekseyevin hər hansı bir səbəbdən məyus olduğunu hiss etməmişdir. Daha sonra əsgər Alekseyev nəzarət panelində xidmətə başlamalı idi. Bir müddət sonra eyni otaqda olan kapitanlar L. və Ş. qonşu istirahət otağından səs eşitmişdirlər. Səs nəyinsə döşəməyə düşməsinə bənzəyirdi. Kapitan L. nə baş verdiyinə baxmaq üçün otağa getmiş və əsgər Alekseyevi istirahət otağının döşəməsində, başının yanında qan içində olan bıçaqla uzanmış vəziyyətdə aşkar etmişdir. O hələ nəfəs alırdı, lakin kapitan L.-in suallarına cavab verə bilmirdi. Kapitan L. kapitan Ş.-nin otağa gəlməsi və təcili tibbi yardım çağırması üçün qışqırmışdır. Kapitan Ş. otağa daxil olmuş, nə baş verdiyini görmüş və avtomobilinə doğru qaçmışdır. Eyni zamanda kapitan L. hadisə barədə mayor P.-yə və podpolkovnik J.-yə məlumat vermişdir və onlar kapitana əsgəri dərhal xəstəxanaya çatdırmaq barədə göstəriş vermişdirlər. Bir neçə zabit onu otaqdan götürmüş və mikroavtobusa yerləşdirmişdir. O, nəfəs alır və zarıyırdı, lakin heç nə izah edə bilmirdi. Kapitan L. əsgər Alekseyevin nə üçün belə bir hərəkət etdiyini başa düşə bilmirdi, çünki növbətçilik zamanı onu təhdid etməmiş və ya ona təzyiq göstərməmişdir.

14. Əsgər Kob. həmin gün (2 mart 2004-cü il) dindirilmişdir. Onun ifadəsinə əsasən, əsgər Alekseyev ünsiyyətcil insan olmuşdur və təhsili ilə bağlı heç bir problemi olmamışdır. 1 mart 2004-cü il tarixində növbətçiliyə başlayarkən kapitan L. onu və əsgər Alekseyevi yaxalıqlarının səliqəsiz görünüşünə görə tənbeh etmiş və onları dəyişdirmək üçün geri göndərmişdir. Dəyişmək üçün yalnız on dəqiqə vaxt verildiyindən onlar cəld olmalı idilər və buna görə də bir-biriləri ilə çox danışa bilməmişdirlər. Onlar geri qayıtdıqda kapitan İ. onlara geyim forması qaydalarını pozduqlarına görə ciddi problemlərinin olacağını demişdir. Buna baxmayaraq, əsgər Kob. bu sözlərə görə kefini pozmamışdır, əsgər Alekseyev də məyus görünmürdü. Gecə növbəsi zamanı əsgər Alekseyev və əsgər Kob. bir-birilərini davamlı olaraq əvəz edirdilər. Təxminən saat 08.00-da istirahət otağında olan əsgər Kob. qonşu otaqda kapitan L.-in icazəsi olmadığı halda avtomobilin dayanacaqdan çıxmasına

yol verdiyi üçün əsgər Alekseyevin üstünə qışqırdığını eşitmişdir. Kapitan L. xüsusi olaraq qeyd etmişdir ki, o, çox bahalı avtomobildir və oğurlandığı halda bu, əsgər Alekseyevin günahı olacaq. Daha sonra saat 09.30-da o, Kapitan L.-in əsgər Alekseyevi lampanın bərkidicisini itirdiyinə görə danladığını eşitmişdir. Əsgərlər Alekseyev və G. bərkidicini axtarmağa getmişdirlər və kapitan L. içəri daxil olmuş, əsgər Kob.-a yeri təmizləmək barədə göstəriş vermişdir. O, qarı təmizləyərkən əsgər Alekseyev gəlmiş və ona zibili zibil maşınına aparmağı söyləmişdir; Kob. zibili aparmaq üçün çıxmışdır. O, zibili digər üç şəxslə maşına yükləyərkən zabit yaxınlaşmış və əsgər Alekseyevin intihar etdiyini söyləmişdir.

15. Əsgər Kol., həmin tarixdə dindirilmiş və bildirmişdir ki, əsgər Alekseyevin ölümü ilə bağlı heç bir məlumatı yoxdur. O qeyd etmişdir ki, əsgər Alekseyev heç bir təzyiqə məruz qalmamışdır.
16. Əsgər G. də 2 mart 2004-cü il tarixində dindirilmişdir. Onun ifadəsinə əsasən, əsgər Alekseyevlə dost olmuşdur. Əsgər Alekseyev mehriban insan olmuşdur, təhsili və ya pulla bağlı problemləri olmamışdır və o, narkotik maddələr qəbul etmirdi. 1 mart 2004-cü il tarixində növbətçiliyə başlayarkən kapitan L. əsgərlər Alekseyev və Kob.-dan yaxalıqlarını dəyişdirməyi tələb etmişdir, lakin bunu hörmətlə etmişdir. 2 mart 2004-cü il tarixində təxminən saat 09.40-da kapitan L. əsgər G.-yə əsgər Alekseyevin sürücünün şəxsiyyətini müəyyən etmədən avomobilin dayanacaqdan çıxmasına icazə verdiyini və həmçinin lampanın bərkidicisinin itdiyini söyləmişdir. Kapitan demişdir ki, bərkidicini tapmazsalar, onun dəyərini ödəməli olacaqlar və o, əsgərlər G. və Alekseyevə bərkidicini axtarmağı əmr etmişdir. Əsgər Alekseyev məyus görünürdü və əsgər G.-yə söyləmişdir ki, avtomobil sahibi tərəfindən idarə olunmadığı halda onun dayanacaqdan çıxmasına yol vermişdir və o, buna görə məsuliyyət daşıyacaq. Əsgər G.-yə əsasən, əsgər Alekseyev fikirləşirdi ki, avtomobil oğurlandığı halda dəyərini o ödəməli olacaq. Onlar buraxılış-nəzarət məntəqəsinə bərkidicini tapmadan qayıtmışdırlar. Orada bir neçə zabit söyləmişdir ki, avtomobil oğurlanmışdırsa, növbətçilikdə olan hər kəs onun və həmçinin bərkidicinin dəyərini ödəməli olacaq. Bir müddət sonra əsgər Alekseyev nəzarət-buraxılış məntəqəsinin qeydiyyat jurnalını götürmüş və əsgər G.-yə demişdir ki, bir gün ərzində həddindən artıq çox uğursuzluğa düçar olmuşdur. Təxminən saat 11.20-də əsgər G. yenidən nəzarət-buraxılış məntəqəsinə getmişdir və orada beş nəfər şəxsi və istirahət otağının döşəməsində uzanan əsgər Alekseyevi görmüşdür. Əsgər G. onu mikroavtobusa yerləşdirməyə kömək etmişdir.
17. Həmin tarixdə podpolkovnik J. dindirilmişdir. Onun ifadəsinə əsasən, 20 fevral 2004-cü il tarixində qohumu cənab X. ona baş çəkmişdir. X. bir neçə

günlük başqa şəhərə səfəri ilə bağlı avotomobilini onun yanında saxlamağın mümkün olub-olmadığını soruşmuşdur. Podpolkovnik J. aerodromun komandirindən icazə aldıqdan sonra ona öz parklanma yerindən istifadə etməyə icazə vermişdir. Qohumunun avtomobilini aerodromun dayanacağında saxladığı gündən başlayaraq o, növbətçi olan bütün zabitləri məlumatlandırmışdır ki, həmin avtomobilin burada parklanması komandirlə razılaşdırılmışdır. 2 mart 2004-cü il tarixində saat 06.30-dan 07.00-dək X. və onun arvadı podpolkovnik J.-nin evinə gəlmişdirlər. O, gedib avtomobili götürməyi təklif etmişdir, lakin X. söyləmişdir ki, o artıq avtomobili götürmüşdür. Podpolkovnik J. çox təəccüblənmişdir, X. getdikdən sonra kapitan L.-ə zəng vurmuşdur və kənar şəxsin içəri keçmək icazəsi olmadan avtomobili dayanacaqdan götürməsinin necə mümkün olması barədə soruşmuşdur. O, bununla əlaqədar xüsusi yoxlamaların aparılmasını tələb etməmişdir, lakin X.-ə dayanacaqda ciddi nəzarət olduğunu söylədiyi, əslində isə X.-in bunu yoxladığı və həqiqətdə belə olmadığını sübut etdiyi üçün utanc hissi keçirdiyini bildirmişdir.

18. Həmçinin 2 mart 2004-cü il tarixində istintaq orqanları aerodromun komandir müavini mayor P.-ni dindirmişdilər. Onun ifadəsinə əsasən, 2 mart 2004-cü il saat 08.00-da nəzarət-buraxılış məntəqəsinə növbətçilik üçün gəlmişdir. Növbətçi zabit bildirmişdir ki, gecə növbəsində podpolkovnik J. tərəfindən dayanacağın buraxılış-nəzarət qaydalarının pozulması ilə bağlı tənbehindən başqa bir insident baş verməmişdir. Görünür ki, kənar şəxs dayanacağa daxil olmuş və avtomobillə oranı tərk etmişdir. Həmin gecə növbətçi olan əsgər Alekseyev bunun necə baş verdiyinə dair tutarlı izahat verə bilməmişdir və ondan günün sonuna qədər yazılı izahat verməsi tələb olunmuşdur. Zabitlər əsgər Alekseyevlə hörmətlə danışmışlar, heç kim səsini yüksəltməmişdir. Təxminən saat 11.00-da kapitan L. onu çağırmış və əsgər Alekseyevin intihar etdiyini demişdir. Mayor P. tələsik nəzarət-buraxılış məntəqəsinə getmişdir, orada əsgər Alekseyevi istirahət otağının döşəməsində, başının yanında süngü ilə uzanmış vəziyyətdə görmüşdür. Mayor P. onu xəstəxanaya apamağa kömək etmişdir.
19. Həmin gün kapitan Ş. dindirilmişdir. Onun ifadəsi kapitan L.-in ifadəsinə uyğundur.
20. 2 mart 2004-cü il tarixində istintaq orqanları əsgər Alekseyevin meyitini və paltarlarını xəstəxanadan götürən zabit B.-ni dindirmişdir. O, insidentlə bağlı hər hansı bir məlumat verə bilməmişdir. Onun sözlərinə görə, əsgər Alekseyev sakit, ünsiyyətcil şəxs olmuşdur və tələbələr arasında ona hörmətlə davranan çoxlu dostları olmuşdur. O nə narkotik maddələr, nə də alkoqollu içkilər qəbul etmişdir.

21. 3 mart 2004-cü il tarixində kapitan İ. dindirilmişdir. O, fiziki hazırlıq müəllimi olmuşdur və əsgər Alekseyevi tələbəsi kimi tanımışdır. Əsgər Alekseyevin qiymətləri yaxşı olmuşdur və o, ünsiyyətcil biri kimi görünürdü. 1 mart 2004-cü il tarixində növbətçiliyə gələrkən əsgər Alekseyev və Kob. yaxalıqlarını dəyişdirmək üçün geri göndərilmişdirlər. Onlar geri qayıtdıqda podpolkovnik B. onların kimin tələbələri olduğunu soruşmuş və məsələni aydınlaşdırmağı tapşırmışdır. Kapitan İ. cavab vermişdir ki, onlar onun tələbələridir və növbətçilikdən sonra tapşırığa əməl olunacaq. O nə əsgər Alekseyev, nə də Kob.-la şəxsən danışmışdır.
22. Həmin tarixdə kapitanlar L., Ş. və mayor P. yenidən dindirilmişdirlər. Onlar əvvəlki ifadələrini təsdiq etmişdirlər və əsgər Alekseyevin döşəmədə uzanmış vəziyyəti ilə bağlı əlavə məlumat vermişdirlər.
23. Həmçinin ərizəçi 3 mart 2004-cü il tarixində dindirilmişdir. Onun sözlərinə görə, əsgər Alekseyev deyirdi ki, təhsilindən xoşu gəlir, ancaq hərbi nizam-intizamı həddindən artıq ciddi hesab edirdi. Buna baxmayaraq, o heç vaxt nə bu barədə, nə də komandirləri ilə bağlı şikayət etmişdir. Əksinə, o, komandirlərin ona kömək etdiklərini söyləyirdi. Əsgər Alekseyevin sözlərinə görə, o institutda heç vaxt hər hansı bir formada təzyiqə məruz qalmamışdır. Ərizəçinin fikrincə, onun oğlu intihar edə bilməzdi.
24. Həmin tarixdə əsgər Alekseyevin atası dindirilmişdir. Onun sözlərinə görə, əsgər Alekseyevin təhsili ilə bağlı hər hansı bir problemi olmamışdır və o, tədrisdən zövq alırdı.
25. 3-20 mart 2004-cü il tarixlərində ekspertlər B., G. və A. tərəfindən əsgər Alekseyevin meyitinin məhkəmə-tibbi ekspertizası keçirilmişdir. Ekspertizanın nəticələrinə əsasən onun ölümünə səbəb sinəsinin sol tərəfinə, sol plevral boşluğa daxil olan və ürəyin sağ mədəciyinin və yuxarı boş venanın yaralanmasına və nəticədə çoxlu qan itkisinə gətirib çıxaran bir iti kəsici alət yarası səbəb omuşdur.
26. 3-31 mart 2004-cü il tarixlərində ekspert T. tərəfindən əsgər Alekseyevin meyitinin və süngünün məhkəmə-bioloji ekspertizası keçirilmişdir. Süngünün üzərindəki qanın əsgər Alekseyevə məxsus olduğu təsdiqlənmişdir.
27. 4-5 mart 2004-cü il tarixlərində əl-barmaq izlərinin yoxlanışı həyata keçirilmişdir və süngünün üzərində əl-barmaq izlərinin olmadığı aşkar edilmişdir.
28. 5 mart 2004-cü il tarixində xətşünaslıq ekspertizası üçün bir neçə əşya götürülmüşdür.
29. Həmin tarixdə ekspert B. əsgər Alekseyevin paltarlarına və şəxsi əşyalarına baxış keçirmişdir.

30. 9-11 mart 2004-cü il tarixlərində institutun ikinci kurs tələbələri əsgərlər D., P., K-r, M-n, S-n, A-v, N., K-z, K-v, B-v, M., G-v, K-n, P-v, G-a, Ş-t, S., G-o və S-v dindirilmişdirlər. Onlar həmin tarixlərdə növbətçi olmadıqlarına görə baş vermiş hadisə ilə bağlı hər hansı spesifik məlumat verə bilməmişdirlər. Onların sözlərinə görə, əsgər Alekseyevin hər hansı ciddi problemləri olmamışdır; onun valideynləri ona mütəmadi olaraq pul göndərirdilər; o nə narkotik maddələr, nə də alkoqol qəbul edirdi; heç vaxt intiharla bağlı fikirlər səsləndirməmişdir; institutda heç kimlə konflikti olmamışdır və təzyiqə məruz qalmamışdır; kiminsə onu öldürmək istəməsini təsəvvür etmək çətin idi. Onlardan bəziləri əlavə etmişdir ki, forma ilə bağlı qaydaların pozulduğu bəzi hallarda əsgərlərə cəza verilə bilərdi. Buna baxmayaraq, institutda hər hansı formada təzyiq göstərilməsi ilə bağlı insidentlər olmamışdır.
31. 10 mart 2004-cü il tarixində Toyota Kamrinin sahibi X. dindirilmişdir. O qeyd etmişdir ki, Ulan-Udedə yaşayır və 19 fevral 2004-cü il tarixində arvadı ilə İrkutska avtomobillə getmişdir. İrkutska çatandan sonra qohumu, podpolkovnik J. ilə əlaqə saxlamış və arvadı ilə istirahətə yollandığından on bir günlük avtomobilini harada saxlaya biləcəyini soruşmuşdur. 19 fevral 2004-cü il saat 21.00-da onlar podpolkovnik J. ilə birlikdə aerodromun dayanacağına getmiş və avtomobili orada saxlamışdırlar. İstirahətdən qayıtdıqdan sonra X. və onun arvadı 2 mart 2004-cü il tarixində saat 07.15-də dayanacağa getmişdirlər. Nəzarət-buraxılış məntəqəsindəki əsgər onlardan nəyə görə orada olduqlarını soruşmuşdur. X. cavab vermişdir ki, dayanacaqdan avtomobili götürmək üçün gəlmişdirlər və onlara içəri keçməyə icazə verilmişdir. Onlardan hər hansı sənəd təqdim etmələri tələb olunmamışdır və onlar avtomobilin yanına getmişdirlər. Avtomobil zədələnməmişdir. X. mühərriki işə salmışdır və çöldə -25 dərəcə şaxta olduğundan mühərrikin "isinməsi" üçün təxminən iyirmi beş dəqiqə gözləmişdir. Daha sonra o, avtomobillə açıq darvazalardan dayanacağı tərk etmişdir. Sonradan X. podpolkovnik J.-nin evində saxlamışdır, orada bir neçə kitab qoymuşdur və Ulan-Udeyə yola düşmüşdür.
32. Həmin tarixdə əsgər Alekseyevin təhsil aldığı müəssisənin direktoru müstəntiqin tələbi əsasında əsgər Alekseyevlə bağlı xasiyyətnamə təqdim etmişdir. Xasiyyətnaməyə əsasən, o, məktəbdə çox ünsiyyətcil olmuşdur və heç vaxt psixoloji sarsıntı keçirməmişdir.
33. 11 mart 2004-cü il tarixində Norilsk Nevropsixoloji Klinikası müstəntiqin sorğusu əsasında onu, əsgər Alekseyevin psixiatrın və ya narkoloqun nəzarəti altında olmadığı barədə məlumatlandırmışdır.
34. 12 mart 2004-cü il tarixində əsgər Alekseyevin İrkutskda yaşayan xalası S-a dindirilmişdir. O, qeyd etmişdir ki, mütəmadi olaraq əsgər Alekseyevlə

danışırdı. O, heç vaxt intiharla bağlı fikirlər səsləndirməmişdir və xalası onun institutda hər hansı bir formada təzyiqə məruz qalıb-qalmaması barədə məlumata malik deyildi. O, əsgərin hansısa ciddi problemlərinin olub-olmadığı barədə də məlumatlı deyildi.

35. 15 mart 2004-cü il tarixində bir neçə məktəb müəllimi və əsgər Alekseyevin keçmiş sinif yoldaşı dindirilmişdir. Onların sözlərinə əsasən, məktəbdə onun müəllimləri və sinif yoldaşları ilə münasibətləri yaxşı olmuşdur və o, düşünülməmiş hərəkətlər etməyə meylli olmamışdır.

36. 21 mart 2004-cü il tarixindən başlayaraq ərizəçi istintaq orqanlarından onun və ərinin zərəçəkmiş statusunun tanınmasını, oğlunun ölümü ilə bağlı halların müəyyən olunması məqsədilə müxtəlif ekspertizaların və digər istintaq hərəkətlərinin aparılmasını, istintaqın gedişi barədə onu məlumatlandırmağı və iş materiallarının surətlərinin ona verilməsini dəfələrlə xahiş etmişdir.

37. 25 mart 2004-cü il tarixli qərarla işə baxan müstəntiq ərizəçinin və ərinin zərərçəkmiş statusunun tanınmasından və onları tələb olunan iş materiallarının surətləri ilə təmin etməkdən imtina etmişdir. Qərarda deyilirdi ki, istintaq hələ ərizəçinin oğlunun intihar etməsi və ya cinayətin baş verdiyini və beləliklə, ərizəçinin və ərinin hər hansı maddi və ya mənəvi zərərdən əziyyət çəkdiyini müəyyən etməmişdir. Bundan əlavə, iş üzrə şahid qismində ərizəçinin sənədlərin surətini almaq hüququ yox idi.

38. 3 aprel 2004-cü il tarixində işə baxan müstəntiq ərizəçinin bir sıra ekspertiza və istintaq hərəkətlərinin keçirilməsi ilə bağlı tələblərini qismən təmin etmişdir.

39. Həmin tarixdə işə baxan müstəntiq 25 mart 2004-cü il tarixli qərarda qeyd olunan əsaslara istinad edərək ərizəçinin və ərinin zərərçəkmiş statusunun tanınması ilə bağlı vəsatəti rədd etmişdir. Ərizəçinin oğlunun intihar məktubu və iş materiallarına daxil olan sənədlərin surətləri və istintaq ərzində atılan addımlar barəsində ətraflı məlumat verilməsinə dair vəsatət müstəntiqin üçüncü şəxslərə belə məlumat vermək öhdəliyinin olmaması səbəbindən rədd edilmişdir.

40. 6 aprel 2004-cü il tarixində Qarnizon Prokurorluğu müstəntiqin 2004-cü il 25 mart və 3 aprel tarixli qərarlarını ərizəçiyə göndərmişdir.

41. 5, 13 və 23 aprel 2004-cü il tarixlərində Baş Hərbi Prokurorluq İdarəsi ərizəçinin müstəntiqin hərəkətləri ilə bağlı şikayətlərini Sibir Hərbi Dairəsinin hərbi prokurorluğuna ("Dairə hərbi prokurorluğu") baxılmaq üçün göndərmişdir, şikayətlər buradan 2004-cü il 15 aprel və 27 aprel tarixlərində Qarnizon Prokurorluğuna göndərilmişdir.

42. 13 aprel 2004-cü il tarixində kapitanlar L. və Ş. poliqrafiya testindən keçmişdirlər. Müstəntiqin əldə etdiyi nəticələrə əsasən, onlar əsgər Alekseyevin ölümündə iştirak etməmişdirlər.
43. 14 aprel 2004-cü il tarixində istintaq orqanları kapitanlar L. və Ş.-dən qan analizləri götürmüş və geyim formalarını almışdırlar. 15 aprel 2004-cü il tarixində formalara baxış keçirilmişdir.
44. Həmin tarixdə institutun uçuş təlimatçısı M. dindirilmişdir. M. bildirmişdir ki, 2 mart 2004-cü il tarixində səhər saatlarında o, nəzarət-buraxılış məntəqəsinə daxil olmuşdur. Kapitanlar L. və Ş. və onun şəxsən tanımadığı əsgər orada olmuşdurlar. Kapitan L. əsgərdən lampanın bərkidicisini axtarmağı tələb etmişdir və əsgər oranı tərk etmişdir. M. sonradan əsgər Alekseyevin başına nə gəldiyini bilmişdir.
45. 15-26 aprel 2004-cü il tarixləri arasında əsgər Alekseyevin intihar məktubu üzərində xətşünaslıq ekspertizası keçirilmişdir. Ekspert müəyyən etmişdir ki, məktub əsgər Alekseyev tərəfindən yazılmışdır.
46. 15 aprel 2004-cü il tarixində institutun təlimatçıları B-y və A-v dindirilmişdirlər. Onlar 2 mart 2004-cü il hadisələrinin birbaşa şahidi olmamışdırlar.
47. 19 aprel 2004-cü il tarixində əsgər Alekseyevin 2 mart 2004-cü ildə geyindiyi paltarlar və onun şəxsi əşyalarına baxış keçirilmişdir.
48. 20 aprel 2004-cü il tarixində institutun təlimatçısı B-v və aviamexanik M-y dindirilmişdirlər. Onlar 2 mart 2004-cü il hadisələrinin birbaşa şahidi olmamışdırlar.
49. Həmin tarixdə müstəntiq iş materialları əsasında əsgər Alekseyevin ölümündən sonra psixoloji-psixiatrik ekspertiza təyin etmişdir.
50. 26 aprel 2004-cü il tarixində ekspertiza keçirilmişdir. Ekspertizaya cəlb olunan altı peşəkarın gəldiyi nəticələrə əsasən əsgər Alekseyev heç bir xroniki xəstəlikdən əziyyət çəkməmişdir, öz hərəkətlərinin mənasını başa düşməyə və onlara nəzarət etməyə qadir olmuşdur. Onun intihar niyyəti 2 mart 2004-cü ilin səhərində həmin səhər baş verən hadisələr nəticəsində yaranmış gərginlik və narahatlıq nəticəsində qəfildən yaranmışdır. İntihar edən an əsgər Alekseyev psixoloji distress vəziyyətində olmuşdur, bu isə onun özünü idarə etmək qabiliyyətini zəiflətmişdir.
51. 21-27 aprel 2004-cü il tarixləri arasında əsgər Alekseyevin paltarlarının və şəxsi əşyalarının, kapitanlar L. və Ş.-nin paltarlarının ekspertizası həyata keçirilmişdir.
52. 22-28 aprel 2004-cü il tarixləri arasında institutun təlimatçısı zabit D., aerodromda müxtəlif işlər üzrə məsul olan mayor L-n. və kapitan V-n.

dindirilmişdirlər. Onlar 2 mart 2004-cü il hadisələrinin birbaşa şahidləri olmamışdırlar.

53. 30 aprel 2004-cü il tarixində əsgərlər G-a və G-v yenidən dindirilmişdirlər. Onlar bəzi əlavə məlumatlar vermişdirlər.

54. Həmin tarixdə hərbi təlim üzrə müavin podpolkovnik X. dindirlmişdir. O qeyd etmişdir ki, əsgər Alekseyevin ölümündən sonra onu intihara nəyin sürüklədiyini müəyyən etmək məqsədilə bir neçə tələbə ilə danışmışdır. Buna baxmayaraq, o, intihar üçün hər hansı səbəb müəyyən edə bilməmişdir. O həmçinin tələbələrə istintaq orqanlarına yalnız həqiqəti söyləməyi tapşırmışdır, lakin onları hədələməmişdir.

55. 30 aprel 2004-cü il tarixində kapitan L. yenidən dindirilmişdir. O bildirmişdir ki, əsgər Alekseyevin qan izləri onun paltosunda ona görə aşkar olunmuşdur ki, o, 2 mart 2004-cü il tarixində əsgəri nəzarət-buraxılış məntəqəsindən çıxartmağa və onu hərbi hospitala yola salmağa kömək etmişdir.

56. Podpolkovnik J. 30 aprel 2004-cü il tarixində yenidən dindirilmişdir və bəzi əlavə məlumatlar təqdim etmişdir.

57. Həmin tarixdə, 30 mart 2004-cü il tarixində əsgər Alekseyevin meyitinin məhkəmə ekspertizasını həyata keçirən B. dindirilmişdir. O da qeyd etmişdir ki, süngüdə əl-barmaq izləri aşkar olunmamışdır, çünki onun tiyəsinin və dəstəyinin səthi nahamardır və belə halda insanın dərisi ilə təmas onun üzərində iz buraxmır. Buna görə də, süngünün üzərində əl-barmaq izləri olsa da, onları müəyyən etmək qeyri-mümkün idi.

58. Həmin tarixdə hərbi hospitalın cərrahı G. dindirilmişdir. O, əsgər Alekseyev hospitala gətirilərkən olduğu vəziyyətin detallarını bildirmişdir.

59. 30 aprel 2004-cü il tarixində Qarnizon Prokurorluğu cinayət işi üzrə icraata hadisə ilə əlaqədar hər hansı bir cinayətin baş verdiyini göstərən sübutların olmaması səbəbindən xitam vermişdir. Ərizəçi bu barədə həmin tarixdə olan məktubla məlumatlandırılmışdır. Görünür ki, ərizəçi qərarın surəti ilə təmin olunmamışdır.

60. 18 may və 26 may 2004-cü il tarixli məktublarla Dairə Hərbi Prokurorluğu ərizəçini məlumatlandırmışdır ki, ərizəçinin oğlunun ölümü ilə bağlı cinayət mühakimə icraatı 2 mart 2004-cü ildə başlanılmış və 30 aprel 2004–cü il tarixində cinayətin baş verdiyini təsdiq edən sübutların olmaması səbəbindən işə xitam verilmişdir. Məktublarda qeyd olunmuşdur ki, istintaq tam və obyektiv şəkildə idarənin ən təcrübəli müstəntiqi tərəfindən aparılmışdır, o, ərizəçinin oğlunun ölümünə əsas verə biləcək bütün mümkün halları təhlil etmişdir, lakin onun oğlunun öldürülməsinə və ya institutun heyəti tərəfindən özünü öldürməyə təhrik edilməsinə dair hər hansı sübut əldə etməmişdir.

Məktublardan birində əlavə olaraq bildirilirdi ki, müfəssəl psixoloji və psixiatrik ekspert rəyləri də daxil olmaqla istintaq zamanı əldə olunan sübutlar göstərir ki, ərizəçinin oğlunun intihar etməsi onun psixoloji xarakteristikası və əlverişsiz həyat şəraiti – hərbi xidmətdəki problemləri ilə izah oluna bilərdi. Məktublarda həmçinin qeyd olunurdu ki, istintaq başa çatmışdır və buna görə də ərizəçi iş materialları ilə tanış ola bilər.

61. 31 may-3 iyun 2004-cü il tarixlərində ərizəçi və onun vəkili materiallarla tanış olmuşdurlar.

62. 2 iyun 2004-cü il tarixli yazılı müraciəti ilə ərizəçi Qarnizon Prokurorluğundan 30 aprel 2004-cü il tarixli qərarı ləğv etməyi, ona iş üzrə zərərçəkmiş statusunun verilməsini və bir sıra istintaq hərəkətlərinin aparılmasını xahiş etmişdir.

63. 3 iyun 2004-cü il tarixində ərizəçi Dairə Hərbi Prokurorluğuna 30 aprel 2004-cü il tarixli qərara dair yazılı şikayətlə müraciət etmiş, istintaq zamanı müəyyən qüsurlara yol verildiyini iddia etmiş və cinayət işi üzrə icraatın davam etdirilməsini, istintaqın tam və əsaslı aparılmasını xahiş etmişdir.

64. 13 avqust 2004-cü il tarixində Dairə Hərbi Prokurorluğu 30 aprel 2004-cü il tarixli qərarı ləğv etmişdir. Qeyd olunmuşdur ki, hadisə ilə bağlı halların müəyyən olunması üçün bir sıra istintaq hərəkətləri aparılmamışdır. Xüsusilə, ərizəçinin zərərçəkmiş statusu tanınmamışdır. Əlavə olaraq, 13 avqust 2004-cü il tarixli qərarda ərizəçinin oğlunun meyitinin müayinəsi ilə bağlı, həmçinin digər ekspert rəyləri və şahid ifadələrindəki uyğunsuzluqlar qeyd olunmuş, bu uyğunsuzluqların istintaqın gedişində araşdırılmadığı bildirilmişdir. Bundan başqa, bir sıra müvafiq şahidlər, o cümlədən, institutun zabitləri və ərizəçinin oğlunu hospitalda qəbul edən tibbi heyətin üzvləri dindirilməmişdirlər. Buna görə də icraatın təzələnməsi barədə göstəriş verilmişdir.

65. Görünür ki, ərizəçi 13 avqust 2004-cü il tarixli qərar barədə məlumatlandırılmışdır, lakin qərarın surəti ona təqdim olunmamışdır.

66. 11 sentyabr 2004-cü il tarixində ərizəçi işə baxan müstəntiqdən onu 13 avqust 2004-cü il tarixli qərarın surəti ilə təmin etməyi xahiş etmişdir.

67. Müstəntiqin 11 oktyabr 2004-cü il tarixli qərarı ilə ərizəçinin zərərçəkmiş statusu tanınmışdır.

68. Həmin tarixdə müstəntiq onun 11 sentyabr 2004-cü il tarixli vəsatətini rədd etmişdir və qeyd etmişdir ki, tələb olunan sənəd zərərçəkmiş şəxsin əldə edə biləcəyi sənədlərin siyahısına daxil deyildi. Qərarda həmçinin deyilirdi ki, ilkin araşdırma bitdikdən sonra ərizəçi iş materialları ilə tanış ola biləcəkdir.

69. 12 oktyabr 2004-cü il tarixində B. yenidən dindirilmişdir. O, 2004-cü il 3mart və 30 mart tarixləri arasında aparılan ekspertizaların nəticələrini təsdiq

etmişdir. O həmçinin izah etmişdir ki, əsgər Alekseyev özünə xəsarət yetirdikdən sonra qısa bir müddət anlaqlı qalmışdır və müddət ərzində müəyyən hərəkətləri etmək qabiliyyəti olmuşdur. İstisna olunmurdu ki, o, süngünü özü yaradan çıxarmışdır, belə ki, bu, onu batırmaqdan daha az səy tələb edirdi.

70. Ekspert Ş. də 12 oktyabr 2004-cü il tarixində yenidən dindirilmişdir. O, 2004-cü il 3 mart və 31 mart tarixləri arasında keçirilmiş bioloji ekspertizanın nəticələrini təsdiqləmişdir.

71. 13 oktyabr 2004-cü il tarixində ekspert G. dindirilmişdir. O, 3-31 mart 2004-cü il tarixləri arasında keçirilmiş ekspertizanın nəticələrini təsdiqləmişdir.

72. Həmin tarixdə aerodromun komandir müavini mayor P. yenidən dindirilmişdir. O, əvvəlki ifadəsini təsdiq etməkdən əlavə, aerodromun dayanacağının qaydaları barədə əlavə məlumat vermişdir. Xüsusilə, o izah etmişdir ki, xidmətdə olan şəxslər orada park olunmuş nəqliyyat vasitələrinə görə maddi məsuliyyət daşımırdılar. Buna baxmayaraq, onlar nəzarət qaydalarına əməl olunmasına görə cavabdehlik daşıyırdılar. O, həmçinin təsdiq etmişdir ki, Toyota Kamri bir neçə günlük podpolkovnik J.-nin aerodromun dayanacağındakı yerində onun təlimatları əsasında parklanmışdır. Avtomobil orada parklandıqdan sonra 2 mart 2004-cü il tarixinə qədər dayanacaqdan götürülməmişdir.

73. Kapitan Ş. 13 oktyabr 2004-cü il tarixində yenidən dindirilmişdir. Əvvəlki ifadəsinə əlavə olaraq, o, əsgər Alekseyevin hospitala aparılması barədə əlavə məlumat vermişdir.

74. Kapitan L. həmin tarixdə yenidən dindirilmiş və bildirmişdir ki, o, əsgər Alekseyevi dayanacağın nəzarət qaydalarını pozduğuna və lampanın bərkidicisini itirdiyinə görə tənbeh etsə də, ona heç vaxt avtomobilin dəyərini ödəməli olduğunu deməmişdir. O həmçinin əsgər Alekseyevin hospitala aparılması barədə əlavə məlumat vermişdir.

75. 2004-cü ilin oktyabrında (gün aydın deyil, oxuna bilmir) aviamexanik praporşik P. dindirilmişdir. Onun sözlərinə görə, 2 mart 2004-cü il tarixində o, aerodromun nəzarət-buraxılış məntəqəsinin yanından keçirdi və bu zaman kapitan Ş. onu içəri çağırmışdır. O daha sonra istirahət otağının döşəməsinin üzərində uzanan tələbəni görmüşdür. Əsgər Alekseyevin bədəninin mövqeyi və onun hospitala yola salınması ilə bağlı praporşikin təsviri digər zabitlərin verdikləri ifadələrlə üst-üstə düşürdü.

76. 14 oktyabr 2004-cü il tarixində podpolkovnik J. yenidən dindirilmişdir. O əvvəlki ifadəsini təsdiqləmiş və əlavə etmişdir ki, əsgər Alekseyevi şəxsən tanımamışdır və heç vaxt onu fiziki və ya psixoloji təzyiqə məruz

qoymamışdır. O həm də izah etmişdir ki, növbətçi olan şəxslər aerodromun dayanacağında park olunan maşınlara görə maddi məsuliyyət daşımırdılar. Buna baxmayaraq, onlar nəzarət qaydalarına əməl etməli və kənar şəxslərin aerodrom ərazisinə daxil olmasına yol verməməli idilər. Kənar şəxslərin əraziyə daxil olmaq istədiyi halda növbətçi öz rəhbərinə bu barədə məlumat verməli və onun göstərişlərini gözləməli idi.

77. 14 oktyabr və15 oktyabr 2004-cü il tarixlərində əsgərlər S-v, Kob., Kol. və G. yenidən dindirilmişdirlər. Əsgər S-v növbətçilərin süngü ilə təmin olunması proseduru ilə bağlı əlavə məlumat vermişdir. Əsgər Kob. əvvəlki ifadəsini təsdiqləmiş və qeyd etmişdir ki, kapitan L. əsgər Alekseyevlə danışarkən 2 mart 2004-cü il tarixində səsini yüksəldərək amiranə tonda danışsa da, onu təhqir etməmişdir. Kapitan L.-in səs tonu uyğun olmuşdur, çünki əsgər Alekseyevi tənbeh edirdi və artıq heç nə söyləməmişdir. Kapitan L. ondan maşının dəyərini ödəməyi tələb etməmişdir. Əsgər Kob. həmin gün başqa zabitlərin əsgər Alekseyevlə danışdığını eşitməmişdir. Əsgər Kol. əvvəlki ifadəsini təsdiq etmiş və əsgər Alekseyevin hospitala aparılması ilə bağlı əlavə məlumat vermişdir. Əsgər G. əvvəlki ifadəsini təsdiqləmiş və əlavə məlumat vermişdir. O xüsusi olaraq qeyd etmişdir ki, 3 mart 2004-cü il səhər saatlarında, o və əsgərlər Kob. və Kol. hərbi təlim üzrə müavin, podpolkovnik X. tərəfindən onun otağına çağırılmışdırlar. X. onlardan nə baş verdiyini soruşmuşdur. Görüş zamanı podpolkovnik J. otağa daxil olmuş və onlara Toyota barədə danışmışdır. Polkovnik X. əsgərlərə Toyota barədə əsgər Alekseyevin valideynlərinə heç nə deməməyi tapşırmışdır, çünki avtomobilin baş verən hadisəyə aidiyyəti yox idi. Buna baxmayaraq, həmin gün əsgərlər əsgər Alekseyevin valideynləri ilə görüşmüş və baş vermiş hadisə ilə bağlı bütün bildiklərini, o cümlədən, avtomobillə bağlı epizodu onlara söyləmişdirlər.

78. 14 oktyabr və 23 oktyabr 2004-cü il tarixlərində işə baxan müstəntiq ərizəçinin 2 iyun, 11 sentyabr və 13 oktyabr 2004-cü il tarixli, bir sıra istintaq hərəkətlərinin aparılması ilə bağlı təkrar vəsatətlərini qismən rədd edən, üç qərar qəbul etmişdir. Qərarda deyilirdi ki, ərizəçi tərəfindən tələb olunan istintaq hərəkətlərinin bir qismi istintaqın gedişində aparılacaq, digər qismi isə daha əvvəl həyata keçirilmişdir və onların yenidən aparılmasına ehtiyac yoxdur. Ərizəçi həmin qərarlar barədə 2004-cü il 14 oktyabr və 25 oktyabr tarixli məktublar vasitəsilə məlumatlandırılmışdır.

79. 16 oktyabr 2004-cü il tarixində polkovnik X. yenidən dindirilmişdir. O təsdiq etmişdir ki, 3 mart 2004-cü il tarixində əsgərlər Kob., Kol. və G.-ni otağına çağırmış və əsgər Alekseyevin intiharı ilə bağlı hadisələr haqqında onlara suallar vermişdir. O həmçinin bütün faktlar müəyyən olunana qədər

əsgər Alekseyevin valideynləri ilə baş verənlərə dair öz mülahizələrini bölüşməməyi tapşırmışdır.

80. 18 oktyabr 2004-cü il tarixində hadisə yerinə əlavə baxış keçirilmişdir.
81. 19 oktyabr 2004-cü il tarixində aerodromun təlim sahəsində əlavə istintaq hərəkətləri aparılmışdır.
82. Həmin tarixdə, hospitalın təcili yardım şöbəsinin müdiri S. dindirilmişdir. O, əsgər Alekseyevin 2 mart 2004-cü il tarixində hospitala qəbulu haqqında əlavə məlumat vermişdir.
83. 19-21 oktyabr 2004-cü il tarixlərində institutun beş təlimçisi G-v, X., Ş-r, B-y və A-v dindirilmişdirlər. Onlar 2 mart 2004-cü il hadisələri ilə bağlı əlavə məlumat verməmişdirlər.
84. 21 oktyabr 2004-cü il tarixində 19 oktyabr 2004-cü il tarixli istintaq hərəkətləri zamanı götürülmüş müəyyən əşyalara baxış keçirilmişdir.
85. 22-25 oktyabr 2004-cü il tarixlərində istintaq orqanları institutun 2 mart 2004-cü il hadisələrinin birbaşa şahidi olmayan altı tələbəsini dindirmişdirlər. Onlar heç bir əlavə məlumat verməmişdirlər.
86. 26 oktyabr 2004-cü il tarixində istintaq orqanları əsgər Alekseyevə məxsus iki tədris jurnalını götürmüşdürlər.
87. Həmin tarixdə istintaq orqanları kapitan L.-ə qarşı cinayət işi başlamaqdan, onun cinayət əməli törətdiyini göstərən kifayət qədər sübutların olmaması səbəbindən, imtina etmişdirlər.
88. Həmin tarixdə ərizəçi yuxarı prokurorluq orqanına müstəntiqin onu 11 oktyabr 2004-cü il tarixli prosessual qərarın surəti ilə təmin etməkdən imtina etməsi ilə bağlı şikayət etmişdir.
89. 27 oktyabr -2 noyabr 2004-cü il tarixlərində istintaq orqanları bir neçə dolayı şahidi dindirmişdir və onlar heç bir əlavə məlumat verməmişdirlər.
90. 2 noyabr 2004-cü il tarixində istintaq orqanları mayor P.-yə qarşı sübutların kifayət etməməsi səbəbindən onun barəsində cinayət işi başlamaqdan imtina etmişdirlər.
91. Həmin tarixdə istintaq orqanları əsgər Alekseyevi hospitalda ölmüş elan edən həkim S-v.-i dindirmişdirlər.
92. Həmçinin 2 noyabr 2004-cü il tarixində tələbələrdən biri G-v və kapitan Ş. arasında üzləşdirmə aparılmışdır.
93. Yenidən həmin tarixdə istintaq orqanları kapitan Ş. barəsində, onun cinayət törətdiyini göstərən kifayət qədər sübutların olmaması səbəbindən, cinayət işi başlanılmasından imtina olunmuşdur.
94. 2 noyabr 2004-cü il tarixli məktubla Dairə Hərbi Prokurorluğu ərizəçini onun oğlunun ölümü ilə bağlı cinayət mühakimə icraatının təzələnməsi və cinayət işinin Qarnizon Prokurorluğuna göndərilməsi (iş 11 oktyabr 2004-cü

il tarixində ora çatdırılmışdır) barədə məlumatlandırmışdır. Məktubda həmçinin deyilirdi ki, istintaq davam edir və ərizəçiyə nəticələr barədə məlumat veriləcək.

95. 4 noyabr 2004-cü il tarixində istintaq orqanları əsgər Alekseyevə məxsus süngünü yenidən müayinə etmişdirlər.

96. 5 noyabr 2004-cü il tarixində Qarnizon Prokurorluğu ərizəçinin 26 oktyabr 2004-cü il tarixli, 2 iyun, 11 sentyabr və 13 oktyabr 2004-cü il tarixli vəsatətlərinin müstəntiq tərəfindən təmin olunmaması ilə bağlı şikayətinə cavab olaraq bildirmişdir ki, onun vəsatətlərinə müstəntiq tərəfindən baxılmışdır və ərizəçi bu barədə 14 oktyabr və 25 oktyabr 2004-cü il tarixli məktublarla məlumatlandırılmışdır. Məktubda daha sonra deyilirdi ki, müstəntiqin 11 oktyabr 2004-cü il tarixli, ərizəçinin 13 avqust 2004-cü il tarixli qərarın surəti ilə təmin olunmasından imtina ilə bağlı qərarı cinayət-prosessual qanunvericiliyin müvafiq müddəalarına uyğun və əsaslı olmuşdur. Məktubda əlavə olaraq deyilirdi ki, ərizəçi ilkin istintaq tamamlandıqdan sonra iş materialları ilə tanış ola və istənilən sənədin surətini əldə edə biləcəkdir.

97. 10 noyabr 2004-cü ildə Qarnizon Prokurorluğu 11/23/0012-04 №-li iş üzrə cinayət işinə, hadisə ilə bağlı cinayətin baş verdiyini göstərən kifayət qədər sübutların olmaması səbəbindən, xitam vermişdir. Həmin tarixdə ərizəçi bu qərar barədə məlumatlandırılmışdır və ona bildirilmişdir ki, iş materialları həmin gün Norilsk Qarnizon Hərbi Prokurorluğuna göndərilmişdir.

98. 3 dekabr 2004-cü il tarixli məktubla Dairə Hərbi Prokurorluğu ərizəçinin 26 oktyabr 2004-cü il tarixli şikayətinə cavab olaraq bildirmişdir ki, işə baxan müstəntiqin iş materiallarının ona təqdim olunmaması ilə bağlı hərəkətləri milli hüququn pozuntusuna səbəb olmamışdır. Məktubda daha sonra qeyd olunmuşdur ki, onun oğlunun ölümü ilə bağlı iş materialları Norilsk Qarnizon Hərbi Prokurorluğuna 22 noyabr 2004-cü il tarixində göndərilmişdir ki, ölmüş şəxsin yaxınları həmin materiallar ilə tanış ola bilsinlər və ərizəçi iş materiallarını öyrənə və istənilən sənədlərin surətini çıxara bilsin.

99. 11 yanvar 2005-ci il tarixində Dairə Hərbi Prokurorluğu daha sonra ərizəçiyə bildirmişdir ki, o, iş materialları ilə tanış olduqdan sonra Dairə Hərbi Prokurorluğuna cinayət işinə xitam verilməsi ilə bağlı qərarın qanuni və əsaslı olmasının yoxlanması üçün göndərilməlidir. Onlar həmçinin ərizəçini məlumatlandırmışdırlar ki, o, bu qərardan məhkəməyə şikayət verə bilər.

100. 12 yanvar 2005-ci il tarixində iş materialları ilə tanış olduqdan sonra ərizəçi Qarnizon Prokurorluğuna müraciət edərək 10 noyabr 2004-cü il tarixli

qərarın ləğv olunmasını, cinayət mühakimə icraatın təzələnməsini və oğlunun ölümü ilə bağlı istintaqın başqa müstəntiq tərəfindən aparılmasını xahiş etmişdir.

101. 18 mart 2005-ci il tarixli məktubla Qarnizon Prokurorluğu bildirmişdir ki, ərizəçinin vəsatəti rədd edilmişdir, belə ki, cinayət işinə xitam verilməsi ilə bağlı qərar qanuni və əsaslı olmuşdur və istintaq yuxarı prokuror tərəfindən verilən təlimatlara əsasən tam və hərtərəfli aparılmışdır.

102. 5 may 2005-ci il tarixində Dairə Hərbi Prokurorluğu ərizəçi tərəfindən Rusiya Federasiyasının Prezidentinə göndərilən məktuba cavab vermişdir. Prokurorluq tərəfindən qeyd olunmuşdur ki, ilkin istintaq zamanı aydın şəkildə müəyyən olunmuşdur ki, ərizəçinin oğlu hərbi xidmət zamanı həyəcanlı psixoloji vəziyyətdə özünə ölümcül bıçaq yarası yetirməklə intihar etmişdir. Prokurorluğa əsasən, bu nəticə, intihar məktubunun həqiqi olması və ərizəçinin oğlu tərəfindən yazılmasını təsdiq edən ekspert rəyi; şəxsin özünə süngü vasitəsilə xəsarət yetirə bilməsi və sonra silahı həmin yaradan çıxara bilməsinin mümkünlüyü barədə ekspert rəyi; hadisə baş verən zaman nəzarət-buraxılış məntəqəsində başqa şəxslərin olmamasına dair şahid ifadələri və digər sübutlar da daxil olmaqla istintaq zamanı əldə olunmuş bir sıra sübutlarla təsdiq olunmuşdur. Prokurorluqdan daha sonra bildirilmişdir ki, istintaq orqanları tam, obyektiv və hərtərəfli araşdırma aparılması üçün bütün mümkün vasitələrdən istifadə etmişdir və 10 noyabr 2004-cü il tarixli qərar qanuni və əsaslı olmuşdur.

103. 21 mart 2006-cı il tarixli qərarla Dairə Hərbi Prokurorluğu ərizəçinin 10 noyabr 2004-cü il tarixli qərardan verdiyi şikayəti rədd etmişdir və qeyd etmişdir ki, qərar qanuni və əsaslı olmuşdur və 2005-ci il 12 iyul və 20 sentyabr tarixli məhkəmə qərarları ilə təsdiq olunmuşdur; ərizəçinin ölümü ilə bağlı halların ilkin istintaq zamanı müəyyən olunması üçün bütün mümkün tədbirlər görülmüşdür; istintaq zamanı cinayət-prosessual qanunvericiliyinin pozuntusuna yol verilməmişdir və ərizəçinin təkrar şikayətlərinə bir neçə dəfə Qarnizon Prokurorluğu və Dairə Hərbi Prokurorluğu tərəfindən ətraflı şəkildə cavab verilmişdir.

**C. Məhkəmə icraatı**

104. 28 aprel 2004-cü il tarixində ərizəçi müstəntqin 2004-cü il 25 mart və 3 aprel tarixli qərarlarından İrkutsk Qarnizon Hərbi Məhkəməsinə (“Qarnizon Məhkəməsi”) şikayət vermişdir.

105. 6 may 2004-cü il tarixli qərarında Qarnizon Məhkəməsi müəyyən etmişdir ki, müstəntiqin ərizəçinin və onun ərinin işdə zərərçəkmiş kimi

tanınmamaları və onun digər vəsatətlərini təmin etməkdən imtina etməsi qanunsuz olmuşdur. Buna baxmayaraq, istintaq 30 aprel 2004-cü il tarixində başa çatdığından, məhkəmə istintaq orqanlarından ərizəçinin hüquqlarının bərpa olunmasını tələb edə bilməzdi. Məhkəmə həmçinin qeyd etmişdir ki, ərizəçi 11/23/0012-04 №-li cinayət işinin materialları ilə tanış olmaq və iş üzrə qəbul olunmuş qərarlardan şikayət vermək hüququna malik olmuşdur.

106. 17 noyabr 2004-cü il tarixində ərizəçi Qarnizon Məhkəməsinə müstəntiqin 2004-cü il 11, 14 və 23 oktyabr tarixli qərarlarından şikayət vermişdir.

107. 9 dekabr 2004-cü il tarixində Qarnizon Məhkəməsi ərizəçinin şikayətini rədd etmişdir. O, müəyyən etmişdir ki, müstəntiqin onu oğlunun ölümü ilə bağlı cinayət işinin təzələnməsinə dair 13 avqust 2004-cü il tarixli qərarın surəti ilə təmin etməkdən imtina etməsi qanuni və əsaslı olmuşdur. Məhkəmə əlavə olaraq qeyd etmişdir ki, o, müstəntiqin müəyyən istintaq hərəkətlərinin aparılmasından imtina etməsinə dair ərizəçinin müraciətlərini nəzərdən keçirə bilməz, çünki istintaq 10 noyabr 2004-cü il tarixində başa çatmışdır və iş materialları Norilsk Qarnizon Hərbi Prokurorluğuna ərizəçinin tanış ola bilməsi üçün göndərilmişdir. Məhkəmə həmçinin qeyd etmişdir ki, ərizəçi iş materialları ilə tanış olduqdan sonra müstəntiqin yuxarıda qeyd olunan qərarlarını mübahisələndirmək hüququna malik olmuşdur.

108. 8 fevral 2005-ci il tarixində Şərqi Sibir Dairə Hərbi Məhkəməsi ("Dairə Hərbi Məhkəməsi") 9 dekabr 2004-cü il tarixli qərarı qüvvədə saxlamışdır.

109. 7 may 2005-ci il tarixində ərizəçi Qarnizon Məhkəməsinə müraciət edərək onun oğlunun ölümü ilə bağlı icraata xitam verən 10 noyabr 2004-cü il tarixli qərarın ləğv olunmasını və icraatın təzələnməsini xahiş etmişdir.

110. 12 iyul 2005-ci il tarixli qərarla Qarnizon Məhkəməsi ərizəçinin şikayətini rədd etmişdir. O qeyd etmişdir ki, istintaqla ərizəçinin oğlunun şəxsi xarakteristikası ilə izah oluna bilən həyəcan səbəbindən özünə ölümcül bıçaq yarası yetirdiyi və digər şəxslər tərəfindən hər hansı yolla ona təsir və ya təhrikin mövcud olmadığı müəyyən edilmişdir. Həmin nəticələr şahid ifadələri, ölən şəxsin intihar məktubu və psixoloji və psixiatrik ekspert rəyləri əsasında alınmışdır. Məhkəmə hesab edir ki, istintaq orqanları hadisə ilə bağlı halların müəyyən olunması üçün bütün mümkün tədbirləri görmüşdürlər və istintaqın gedişində cinayət-prosessual qanunvericiliyin tələbləri pozulmamışdır. Beləliklə, məhkəmə bu nəticəyə gəlmişdir ki, 10 noyabr 2004-cü il tarixli qərar qanuni və əsaslı olmuşdur.

111. 20 sentyabr 2005-ci il tarixində Dairə Hərbi Məhkəməsi birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlamışdır.

112. Ərizəçinin yuxarıda qeyd olunan qərarları nəzarət qaydasında icraat vasitəsilə ləğv etmək cəhdləri isə nəticəsiz qalmışdır.

## II. MÜVAFİQ MİLLİ QANUNVERİCİLİK

113. Cinayət-Prosessual Məcəllənin 125-ci maddəsi şikayətlərə məhkəmə baxışı prosedurunu tənzimləyir. Müstəntiqin və ya prokurorun cinayət işini başlamaqdan imtina və ya icraata xitam vermə ilə bağlı qərarlarından və cinayət işinin tərəflərinin konstitusional hüquqlarını və azadlıqlarını pozan və ya vətəndaşların ədalətə çatımlılığına mane olan digər qərarlardan, aktlardan və ya hərəkətsizlikdən mübahisələndirilən qərarların qanuniliyi və əsaslılığını yoxlamaq səlahiyyətinə malik olan birinci instansiya məhkəməsinə şikayət verilə bilər.

## HÜQUQİ MƏSƏLƏLƏR

## KONVENSİYANIN 2-Cİ MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

114. Ərizəçi şikayət etmişdir ki, səlahiyyətli orqanlar onun oğlunun ölümü ilə bağlı effektiv araşdırma aparmamışdırlar. O xüsusi olaraq iddia etmişdir ki, müstəntiqin onun iş üzrə zərərçəkmiş statusunu tanımaqdan imtina etməsi nəticəsində o, istintaqdan ilkin mərhələdə kənarlaşdırılmışdır və onun zərərçəkmiş statusunun tanınması barədə qərar qəbul olunduqdan sonra belə, istintaqın gedişi barədə məlumatlandırılmasına dair müraciətlərinə baxılmamışdır. Ərizəçi şikayətləri ilə bağlı Konvensiyanın 6, 10 və 13-cü maddələrinə istinad etmişdir. Məhkəmə şikayəti Konvensiyanın 2-ci maddəsi baxımından təhlil edəcək. Həmin maddədə deyilir:

> "1. Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Hər kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz.
>
> 2. Həyatdan məhrumetmə, aşağıdakı məqsədlər üçün güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda, bu maddənin pozulması hesab edilmir:
>
> (a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;
>
> (b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün;

(c) qanuna müvafiq olaraq iğtişaş və ya qiyamın yatırılması üçün."

## A. Tərəflərin arqumentləri

115. Hökumət bildirmişdir ki, milli istintaqın nəticələrindən də aydın olduğu kimi, əsgər Alekseyev süngü ilə özünə vurduğu bıçaq yarasından vəfat etmişdir və bu intihar deməkdir. Eyni zamanda, bir sıra şahid ifadələri də daxil olmaqla istintaq zamanı əldə olunan materiallar əsgər Alekseyevin hər hansı formada təzyiqə məruz qaldığını göstərmir. Xüsusilə də, ondan avtomobilin dəyərinin ödənilməsi tələb olunmamışdır. Əksinə, o bilirdi ki, qüvvədə olan qaydalara əsasən institutun tələbələri aerodromun dayanacağında saxlanılan avtomobillərə görə maddi məsuliyyət daşımırlar. Beləliklə, əsgər Alekseyevin ölümü ilə əlaqədar kimisə məsuliyyətə cəlb etmək mümkün olmamışdır və buna görə də Konvensiyanın 2-ci maddəsinə əsasən Dövlətin məsuliyyəti yaranmamışdır.

116. İstintaqa gəlincə, o, əsgər Alekseyevin öldüyü gün başlanılmışdır və çevik və hərtərəfli aparılmışdır. Bir sıra istintaq hərəkətləri aparılmış və çoxlu sayda şahidlər dindirilmişdir. Beləliklə, istintaq effektiv və Konvensiyanın 2-ci maddəsinə müvafiq olmuşdur. Hökumət daha sonra qeyd etmişdir ki, ərizəçi səmərəli hüquq müdafiə vasitələri hüququndan tam şəkildə istifadə etmişdir. Xüsusilə, o, müstəntiqin bir sıra qərarlarından məhkəməyə şikayət etmişdir. Bundan başqa, əsgər Alekseyev silahlı qüvvələrdə xidmət zamanı vəfat etdiyinə görə ərizəçi sığorta ödənişini almaq hüququna malik olmuşdur və onu əldə etmişdir. O həmçinin oğlunun dəfn xərcləri üçün vəsait əldə etmişdir.

117. Ərizəçi cavab olaraq heç bir arqument irəli sürməmişdir.

## B. Məhkəmənin qiymətləndirməsi

### *1. Qəbuledilənlik*

118. Məhkəmə qeyd edir ki, ərizə Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin (a) yarımbəndinə əsasən açıq-aşkar əsassız deyil. O daha sonra qeyd edir ki, ərizə digər əsaslar üzrə qəbuledilməz deyil. Buna görə də ərizə qəbuledilən elan olunmalıdır.

2. *Mahiyyət*

**(a) Ümumi prinsiplər**

119. Məhkəmə təkrarən qeyd edir ki, yaşamaq hüququnu təmin edən 2-ci maddə Konvensiyanın ən fundamental müddəalarından biridir. 3-cü maddə ilə birlikdə o, Avropa Şurasına daxil olan demokratik cəmiyyətlərin əsas dəyərlərindən birini əks etdirir. İndividual şəxsləri müdafiə vasitəsi kimi Konvensiyanın məqsədi və vəzifələri tələb edir ki, 2-ci maddə onda nəzərdə tutulmuş təminatları praktiki və effektiv edəcək şəkildə şərh və tətbiq olunsun (bax: *McCann və başqaları Birləşmiş Krallığa qarşı*, 27 sentyabr 1995-ci il, §§ 146-47, A Seriyaları № 324).

120. 2-ci maddənin 1-ci cümləsi Dövlətdən yalnız qəsdən və qanunsuz olaraq həyatdan məhrum etmədən çəkinməyi deyil, həmçinin onun yurisdiksiyasına aid olan şəxslərin həyatlarının qorunması üçün müvafiq addımların atılmasını tələb edir (bax: *L.C.B. Birləşmiş Krallığa qarşı,* 9 iyun 1998-ci il, § 36, *Qərar və Qətnamələr Toplusu* 1998-III). Məhkum olunmuş şəxslərin işləri baxımından Məhkəmə daha əvvəl qeyd etmişdir ki, məhbus şəxslər həssas mövqedədirlər və səlahiyyətli orqanlar onları müdafiə etməyə borcludurlar. Dövlətin üzərinə şəxsin həbsdə olarkən məruz qaldığı zərərə görə məsuliyyət qoyulur və bu vəzifə şəxsin öldüyü zaman daha ciddi xarakter daşıyır (bax: məsələn, *Salman Türkiyəyə qarşı* [BP], № 21986/93, § 99, AİHM 2000-VII).

121. Məhbus şəxslər kimi, çağırışçılar da tamamilə Dövlətin nəzarəti altındadırlar və ordu ilə bağlı bütün hadisələr bütövlükdə və ya əsasən müvafiq orqanların müstəsna səlahiyyət dairəsinə aiddir. Buna görə də, Dövlət həm də orduda vurulan hər hansı zərərə və ya ölüm hallarına görə cavabdehlik daşıyır (bax: *Beker Türkiyəyə qarşı*, № 27866/03, §§ 41-42, 24 mart 2009-cu il və *Mosendz Ukraynaya qarşı,* № 52013/08, § 98, 17 yanvar 2013-cü il).

122. Məhkəmə bununla bağlı həmçinin təkrarən qeyd edir ki, işin dəqiq hallarının müəyyən olunması dövlət orqanlarına aid olan obyektiv səbəblər üzündən mümkün olmayan bütün hallarda cavabdeh Hökumət hadisələrin baş vermə ardıcıllığını qənaətbəxş və inandırıcı şəkildə izah etməli və ərizəçinin iddialarını təkzib etməyə qadir olan tutarlı sübutlar təqdim etməlidir (bax: *Mansuroğlu Türkiyəyə qarşı*, № 43443/98, § 80, 26 fevral 2008-ci il).

123. Dövlətin məsuliyyətli olduğu vəziyyətlərdə ölüm halları baş verirsə, 2-ci maddə Dövlətin üzərinə sərəncamında olan bütün vasitələr vasitəsilə adekvat izah – hüquqi və ya digər – verilməsi vəzifəsini qoyur ki, bu da yaşamaq hüququnun müdafiəsini təmin edən qanunverici və inzibati

tədbirlərin müvafiq qaydada həyata keçirilməsini və həmin hüququn pozuntularının qarşısının alınmasını və cəzalandırılmasını tələb edir (bax: *Öneryıldız Türkiyəyə qarşı* [BP], № 48939/99, § 91, AİHM 2004-XII və *mutatis mutandis*, *Paul və Audrey Edwards Birləşmiş Krallığa qarşı*, № 46477/99, § 54, AİHM 2002-II).

124. Bununla bağlı Məhkəmə müəyyən etmişdir ki, yaşamaq hüququ və ya fiziki toxunulmazlıq hüququnun pozuntusu qəsdən baş vermirsə, "səmərəli məhkəmə sistemi" yaradılmasına dair pozitiv öhdəlik mütləq şəkildə hər bir işdə cinayət mühakimə icraatının aparılmasını tələb etmir və o, mülki, inzibati və ya hətta intizam vasitələri vasitəsilə təmin edilə bilər (bax: məsələn, *Mastromatteo İtaliyaya qarşı* [BP], № 37703/97, §§ 90, 94 və 95, AİHM 2002-VIII və *Vo Fransaya qarşı* [BP], № 53924/00, § 90, AİHM 2004-VII). Buna baxmayaraq, belə bir sistem üçün minimum tələb ondan ibarətdir ki, istintaqı aparan şəxslər hadisələrdə iştirak edən şəxslərdən asılı olmamalıdırlar. Bu, iyerarxik və ya təşkilati və həmçinin praktiki müstəqilliyi nəzərdə tutur (bax: *Paul və Audrey Edwards,* § 70, və *Mastromatteo*, § 91).

125. Məhkəmə daha sonra xatırladır ki, qəsdən adam öldürmə hallarında rəsmi araşdırma aparılmasına dair 2-ci maddənin şərhi yalnız belə əməllərlə bağlı iddiaların adətən cinayət məsuliyyətini əhatə etməsi ilə deyil, həmçinin adətən təcrübədə ölüm hadisənin həqiqi hallarının bütövlükdə və ya əsasən Dövlətin vəzifəli şəxslərinin və ya orqanlarının məlumatı ilə məhdudlaşdırılması və ya məhdudlaşdırıla bilməsi ilə əsaslandırıla bilər. Buna görə də, Məhkəmənin, xüsusilə də, letal gücün istifadəsi ilə bağlı artıq müəyyən etdiyi prinsiplər digər kateqoriyadan olan işlərdə də tətbiq oluna bilər (bax: *Trubnikov Rusiyaya qarşı*, № 49790/99, § 87, 5 iyul 2005-ci il).

126. Müvafiq olaraq, həbsdə və ya orduda olan şəxslərin yaşamaq hüququnun qorunmasına dair pozitiv öhdəliklə bağlı işlərdə 2-ci maddə ilə tələb olunan sistem, effektivliklə əlaqədar minimum standartlara cavab verən müstəqil və qərəzsiz, rəsmi araşdırmanı təmin etməlidir. Belə hallarda, səlahiyyətli orqanlar nümunəvi səylə və çevikliklə hərəkət etməli və öz təşəbbüsləri ilə, birincisi, hadisənin baş vermə hallarının və nəzarət sisteminin fəaliyyətində hər hansı çatışmazlıqları və ikincisi, işdə iştirak edən Dövlət orqanları və ya vəzifəli şəxsləri müəyyən etməyə imkan verən araşdırmalara başlamalıdırlar. İctimai nəzarət tələbi də bu baxımdan əhəmiyyətlidir (bax: məsələn, *Kelly və başqaları Birləşmiş Krallığa qarşı*, № 30054/96, § 114, 4 may 2001-ci il; *McCann və başqaları*, § 161; *İlhan Türkiyəyə qarşı* [BP], № 22277/93, § 63, AİHM 2000-VII; *McKerr Birləşmiş Krallığa qarşı*, № 28883/95, § 148, AİHM 2001-III və *Trubnikov*, § 88).

**(b) Bu prinsiplərin hazırkı işə tətbiqi**

127. Hazırkı işə gəlincə və yuxarıda qeyd olunan prinsipləri nəzərə alaraq, Məhkəmə ərizəçinin şikayətini Konvensiyanın 2-ci maddəsinə uyğun olaraq aşağıdakı nöqteyi-nəzərdən təhlil edəcək. Birincisi, o, səlahiyyətli orqanların ərizəçinin oğlunun ölümü ilə bağlı inandırıcı izah verib-vermədiklərini qiymətləndirəcək. İkincisi, Məhkəmə qeyd olunan şərtlər daxilində Dövlətin ərizəçinin oğlunun həyatını yetərli şəkildə qorumaq vəzifəsini yerinə yetirib-yetirmədiyini təhlil edəcək (bax: *Mosendz*, § 96).

128. Müvafiq orqanların inandırıcı izah verib-verməməsi həm də qeyd olunan işlə bağlı effektiv araşdırma aparmaya dair prosessual vəzifəylə sıx bağlıdır. Dövlətin əsgər Alekseyevin ölümü ilə bağlı qənaətbəxş izah verib-vermədiyini müəyyən etmək üçün Məhkəmə müvafiq orqanlar tərəfindən aparılmış araşdırmaya və onun nəticələrinə qiymət verəcək.

129. Məhkəmə ilk olaraq qeyd edir ki, istintaq əsgər Alekseyevin öldüyü gün, yəni 2 mart 2004-cü il tarixində, səlahiyyətli orqanlar hadisə barədə məlumatlandırıldıqdan dərhal sonra başlanmışdır. İlkin yoxlamalar və istintaq hərəkətləri bir neçə gün ərzində həyata keçirilmişdir. Bunlara hadisə yerinə baxış, əsgər Alekseyevə məxsus süngü və intihar məktubu da daxil olmaqla bəzi əşyaların götürülməsi, əsas şahidlərin dindirilməsi və əsgər Alekseyevin meyitinin və süngüsünün ekspertizası daxil idi. Müəyyən əlavə istintaq hərəkətlərinin aparılmasından sonra istintaqın başa çatdırılması haqqında qərarın 10 noyabr 2004-cü il tarixində qəbul edildiyini nəzərə alaraq Məhkəmə istintaqın çevik aparıldığını hesab edir.

130. İlkin olaraq ərizəçinin zərərçəkmiş statusunun tanınmasından imtina olunmasına baxmayaraq, onun bu statusu və istintaq materialları ilə tanış olmaq hüququ daha sonra tanınmışdır; o, materiallarla öz vəkili ilə birlikdə 2004-cü il 31 may və 3 iyun tarixləri arasında və 2005-ci ilin yanvar ayında tanış olmuşdur. Bundan əlavə, ərizəçi istintaq orqanlarının qəbul etdiyi qərarları mübahisələndirmək hüququna malik olmuşdur və o, iş materialları ilə tanış olduqdan sonra bu hüququndan istifadə etmişdir (bax: §§ 106-12). Beləliklə, Məhkəmə bu nəticəyə gəlir ki, müvafiq orqanlar ictimai nəzarət tələbinə riayət etmişdirlər.

131. Məhkəmə müəyyən edir ki, müvafiq orqanlar əsgər Alekseyevin ölümünü əhatə edən halların müəyyən olunması üçün ciddi cəhd göstərmişdirlər. Həmin orqanlar çoxsaylı şahidlərin dindirilməsi və müvafiq ekspertizaların keçirilməsi də daxil olmaqla xeyli sayda istintaq hərəkətləri aparmışdırlar. Xüsusən də, istintaq orqanları qəsdən adam öldürmə və ya özünü öldürmə həddinə çatdırma da daxil olmaqla əsgər Alekseyevin ölüm

səbəbləri ilə bağlı müxtəlif fərziyyələri təhlil etmişdirlər (bax: *Mosendz*, § 98). İstintaq orqanlarının məktublarından aydındır ki, müxtəlif istiqamətlərdə araşdırmalar aparılmışdır (bax §37 və §60). Əsgər Alekseyevin qətlə yetirilib-yetirilmədiyini müəyyənləşdirmək üçün süngünün üzərində əl-barmaq izlərinin ekspertizası, əsgər Alekseyevin meyitinin yanında tapılmış intihar məktubu üzrə xətşünaslıq ekspertizası və əsgər Alekseyevin paltarlarının və şəxsi əşyalarının və onun meyitini üzərində bıçaq yarası ilə istirahət otağında tapdıqlarını iddia edən kapitanlar L. və Ş.-nin paltarlarının ekspertizası həyata keçirilmişdir. Onlar həmçinin kapitanlar L. və Ş.-ni (poliqraf vasitəsilə) və əsgər Alekseyevi öldürmək üçün heç kimin hər hansı bir motivinin olmadığını deyən digər bir çox şahidləri dindirmişdirlər. Onlar həm də ekspert B.-ni dindirərək əsgər Alekseyevin özünə xəsarət yetirdikdən sonra süngünü yaradan çıxara bilməsinin mümkün olub-olmadığını soruşmuşdurlar. Beləliklə, istintaq orqanlarının adam öldürmənin mümkünlüyündən imtina etmələri yetərli sübutlara əsaslanmışdır.

132. Eyni zamanda, istintaq orqanları özünü öldürmə həddinə çatdırmanın mümkünlüyünü də araşdırmışdırlar. Bir sıra dindirilmiş şahidlər qeyd etmişdirlər ki, əsgər Alekseyevin institutda hər hansı bir formada təzyiqə məruz qalmasına dair məlumatları və buna inanmaq üçün səbəblər yoxdur. 2 mart 2004-cü il hadisələri, xüsusi olaraq, çirkli yaxalıq və lampanın bərkidicisinin itirilməsi ilə bağlı tənbehə gəldikdə, şahid ifadələrindən aydın olur ki, əsgər Alekseyevin komandirləri qüvvədə olan qaydaların pozulmasına görə mövcud olan qanuni tənbehdən kənara çıxmamışdırlar. Avtomobillə bağlı insidentə gəlincə, Məhkəmə qeyd edir ki, əsgər Kob.-un kapitan L.-in əsgər Alekseyevə avtomobilin bahalı olduğunu və oğurlandığı halda onun günahı olacağını dediyini eşitsə də (bax: § 14), kapitan L. əsgər Alekseyevə avtomobilin dəyərini ödəməli olduğunu söylədiyini inkar etmişdir; bu, bir sıra institut tələbələri tərəfindən təsdiq olunmuşdur (bax: § 74 və § 77). Bundan əlavə, mayor P. istintaq orqanlarına izah etmişdir ki, növbətçilər dayanacaqda saxlanılan avtomobillərə görə maddi məsuliyyət daşımırdılar (bax: § 72) və Hökumətə əsasən əsgər Alekseyev bu barədə məlumatlı olmalı idi. Məhkəmə buna görə də milli orqanların əsgər Alekseyevdən avtomobilin dəyərinin ödənilməsinin tələb edilməsi ilə bağlı sübutların olmamasına dair nəticəni bölüşməyə bilməz. Məhkəmə hesab edir ki, kapitan L. əsgər Alekseyevə daxili qaydalara riayət etməyin vacibliyini çatdırmaq və pozuntuya görə məsuliyyəti hiss etməsi məqsədilə avtomobilin oğurlandığı halda onun günahı olacağını demiş ola bilərdi. Buna baxmayaraq, bu, xüsusilə də, kapitan L.-in avtomobilin dayanacaqdan öz sahibi tərəfindən götürüldüyündən məlumatlı olduğunu nəzərə almaqla,

avtomobilin əvəzinin ödənilməsinə dair göstəriş hesab oluna bilməzdi. Əsgər Alekseyevin avtomobilə görə maddi məsuliyyət daşımasına inanması - bu fakt intihar məktubundan və əsgər G.-nin ifadələrindən (bax: § 10 və §16) məlum olur – psixoloji-psixiatrik ekspertizanın nəticələrinə əsasən həmin səhər olduğu həyəcan vəziyyətində hadisəni yalnış başa düşməsi ilə əlaqədar olmuşdur (bax: § 50).

133. Beləliklə, Məhkəmə müəyyən edir ki, istintaq orqanları əsgər Alekseyevin ölümü ilə bağlı cəld və hərtərəfli araşdırma aparmış və müxtəlif sübutlar əsasında onun intihar etməsinə dair əsaslı nəticəyə gəlmişdirlər. Bundan başqa, psixoloji-psixiatrik ekspertizanın əsgər Alekseyevin heç bir xroniki xəstəlikdən əziyyət çəkməməsinə dair nəticəsi, həmçinin bir sıra şahidlərin onun hər hansı psixoloji problemlərə malik olmamasına dair ifadələri nəzərə alınmaqla, səlahiyyətli orqanlar onun intihar riski barədə xəbərdar ola bilməzdilər və buna görə də, bununla bağlı tədbirlər görmək vəzifəsini daşımırdılar. Beləliklə, Məhkəmə Dövləti əsgər Alekseyevin ölümünə görə cavabdeh hesab edə bilməz.

134. Beləliklə, nə Dövlətin nəzarətində olarkən ərizəçinin oğlunun yaşamaq hüququnun müdafiəsi ilə bağlı pozitiv öhdəliyi və onun ölümünə görə cavabdeh olması, nə də effektiv araşdırma aparılmasına dair prosessual vəzifəyə münasibətdə Konvensiyanın 2-ci maddəsinin pozuntusuna yol verilmişdir.

BU SƏBƏBLƏRDƏN MƏHKƏMƏ YEKDİLLİKLƏ

1. Ərizəni qəbuledilən *elan edir*;
2. Ərizəçinin oğlunun ölümü və bununla bağlı istintaqa münasibətdə Konvensiyanın 2-ci maddəsinin pozuntusuna yol verilmədiyini *qərara alır*.

İngilis dilində tərtib edilmişdir və Məhkəmə Reqlamentinin 77-ci Qaydasının 2-ci və 3-cü bəndlərinə uyğun olaraq yazılı şəkildə 19 dekabr 2013-cü il tarixində elan edilmişdir.

| | |
|---|---|
| Andre Vampaş | İzabel Berro-Lefevr |
| Katib müavini | Sədr |